

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU


AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 26 aprel 2025-ci il №29 (2938) https://mod.gov.az Qiymәti 30 qәpik


## Azərbaycan Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 22-də Çin Xalq Respublikasına dövlət səfərinə gedib.*

Pekin Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Çin Xalq Respublikasının nəqliyyat naziri Liu Vey və digər rəsmi şəxslər qarşılayıblar.

* * *

Çin Xalq Respublikasında dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 23-də rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Çin Xalq Respublikasının Sədri Si Cinpin və birinci xanım Pen Liyuan Azərbaycan Prezidenti İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı qarşılayıblar.

Çin nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyəti isə Çin Xalq Respublikasının Sədri Si Cinpinə təqdim olunub.



Azərbaycan Respublikasının və Çin Xalq Respublikasının Dövlət himnləri səsləndirilib.

Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verib.

Azərbaycan Prezidenti fəxri qarovul dəstəsinin qarşısından keçib.

Dövlət başçıları rəsmi foto çəkdiriblər.

* * *

Aprelin 23-də Pekində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin iştirakı ilə Azərbaycan-Çin sənədlərinin imzalanması mərasimi olub.

Əvvəlcə Prezident İlham Əliyev və Sədr Si Cinpin "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ı imzalayıblar.

"Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında ümumvətəndaş pasportlarına malik vətəndaşların vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş"i və "Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi ilə Çin Xalq Respublikasının Xarici İşlər Nazirliyi arasında humanitar minatəmizləmə sahəsində əməkdaşlığın möhkəmləndirilməsinə dair Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Çinin xarici işlər naziri Van İ imzalayıblar.

(Ardı 2-ci səhifədə)

## “Mühəndis təminatı üzrə zəruri tədbirlər plana uyğun olaraq icra olunur”

Azərbaycan Ordusunun Mühəndis Qoşunlarının hissə və bölmələri istər müharibədən əvvəlki dövrdə, istər 44 günlük Vətən müharibəsi zamanı, istərsə də ondan sonrakı uğurlu əməliyyatlarda üzərinə düşən tapşırıqları yüksək səviyyədə yerinə yetirib, hal-hazırda da bu vəzifənin öhdəsindən layiqincə gəlir. Döyüş əməliyyatları zamanı keçid açma, mühəndis maneələrinin dəf olunması, mina, kustar üsullarla hazırlanmış partlayıcı qurğu və döyüş sursatlarının zərərsizləşdirilməsi, təminat yollarının salınması və digər fəaliyyətlərin müvəffəqiyyətlə icra edilməsində, bir sözlə, qələbəmizin təmin olunmasında digər qoşun növləri kimi, Azərbaycan Ordusunun Mühəndis Qoşunlarının hissə və bölmələrinin də misilsiz xidmətləri olub. Azərbaycan Ordusunun Mühəndis Qoşunlarının fəaliyyəti ilə bağlı ətraflı məlumat əldə etmək məqsədilə Mühəndis Qoşunları Baş İdarəsinin nümayəndəsi polkovnik-leytenant Anar Fətullayev ilə həmsöhbət olduq.

(Ardı 5-ci səhifədə)

## Hərbi vəzifəlilərlə keçirilən toplanışda praktiki məşğələlərə xüsusi diqqət yetirilir

Müdafiə Nazirliyinin illik hazırlıq planına əsasən, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə keçirilən tədbirlər çərçivəsində hərbi hissələrdə ehtiyatdan çağırılan bir qrup hərbi vəzifəlilərin cəlb edildiyi təlim toplanışında praktiki məşğələlərə xüsusi diqqət yetirilir.

Müdafiə Nazirliyi xəbər verir ki, tədris proqramına müvafiq olaraq, toplanışa cəlb edilmiş heyətlə xüsusi təyinatlı hərbi hissələrdən birində nəzəri və praktiki məşğələlər keçirilib, hərbi vəzifəlilərin sıra hazırlığı təkmilləşdirilib.

(Ardı 8-ci səhifədə)



## Azərbaycan hərbçiləri “KURTARAN-2025” təlimlərində iştirak edəcəklər

KURTARAN-2025

Türkiyənin Marmaris şəhərində aprelin 30-dək keçiriləcək "KURTARAN-2025" adlı beynəlxalq təlimlərdə iştirak etmək məqsədilə Azərbaycan hərbçiləri qardaş ölkəyə yola düşüblər.

Müdafiə Nazirliyi xəbər verir ki, təlimlərdə Türkiyə Respublikasının Hərbi Dəniz Qüvvələrinin, Quru Qoşunlarının, Hərbi Hava Qüvvələrinin və Sahil Mühafizə Qüvvələrinin iştirakı nəzərdə tutulub.

Təlimlər zamanı, həmçinin "Yüksək səviyyəli müşahidəçi günü"nün keçirilməsi də planlaşdırılıb.

Plana uyğun olaraq, təlimlər çərçivəsində müxtəlif qoşun növləri qarşılıqlı əlaqədə qarşıya qoyulmuş tapşırıqları icra edəcəklər.

## Yaradılan şərait onları idmanla məşğul olmağa daha da həvəsləndirir

Azərbaycan Ordusunun şəxsi heyətinin gündəlik fəaliyyətindən danışanda onların fiziki hazırlıq saatlarını da qeyd etməliyik. Günün nizam qaydalarına uyğun olaraq keçirilən fiziki hazırlıq məşğələləri hərbi qulluqçuların həm döyüş qabiliyyətinin yüksəldilməsinə, həm də sağlamlıqlarının möhkəmləndirilməsinə istiqamətlənmiş fəaliyyət prosesidir. Hərbi qulluqçu nə qədər fiziki hazırlıqla məşğul olarsa, bir o qədər fiziki cəhətdən möhkəm, güclü və sağlam olar, ona verilmiş döyüş tapşırığını daha çevik, asan və cəld yerinə yetirər.

Bütün bunları nəzərə alaraq deyə bilərik ki, gənclərin ordumuza layiqli, bacarıqlı əsgərlər kimi formalaşmasında döyüş hazırlığı ilə yanaşı, fiziki hazırlıq məşğələlərinin də rolu böyükdür. Buna görə də ordumuzun bölmələrində müasir idman avadanlıqları ilə təchiz olunan trenajor zalları, idman şəhərcikləri vardır. Bundan başqa, hərbi qulluqçular arasında keçirilən müxtəlif idman yarışları da Azərbaycan Ordusunda şəxsi heyətin fiziki hazırlığının daim diqqət mərkəzində saxlanılmasının bariz nümunəsidir.



(Ardı 7-ci səhifədə)

# Azərbaycan Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri

(Əvvəli 1-ci səhifədə)

"Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında Müqavilə"ni Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayev və Çinin xarici işlər naziri Van İ imzalayıblar.

"Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında texniki-iqtisadi əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayev və Çinin İnkişaf üzrə Beynəlxalq Əməkdaşlıq Agentliyinin direktoru Çen Siadon imzalayıblar.

"Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Çin Xalq Respublikasının Elm və Texnologiya Nazirliyi arasında elm və texnologiya sahələrində əməkdaşlıq haqqında Protokol"u Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Çinin elm və texnologiya naziri Yin Hecun imzalayıblar.





"Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Çin Xalq Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Çinin ədliyyə naziri Xı Ron imzalayıblar.

"Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Çin Xalq Respublikasının Mədəniyyət və Turizm Nazirliyi arasında 2025-2029-cu illər üzrə mədəni əməkdaşlıq haqqında Protokol"u Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Çinin mədəniyyət və turizm naziri Sun Yeli imzalayıblar.

"Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi ilə Çin Xalq Respublikasının Milli Əqli Mülkiyyət Administrasiyası arasında Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Çinin Milli Əqli Mülkiyyət Administrasiyasının rəhbəri Şen Çanyu imzalayıblar.

"Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Çin Milli Kosmik İdarəsi (CNSA) arasında kosmosda əməkdaşlıq və kosmik fəzadan dinc məqsədlər üçün istifadə haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Çin Milli Kosmik İdarəsinin rəhbəri Şan Conde imzalayıblar.

"Azərbaycan Respublikasının Dövlət Neft Fondu ilə Çinin İnvestisiya Korporasiyası arasında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının Dövlət Neft Fondunun icraçı direktoru İsrafil Məmmədov və Çinin İnvestisiya Korporasiyasının sədri və icraçı direktoru Can Çinson imzalayıblar.

"Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında "Bir kəmər, bir yol" təşəbbüsünün birgə təşviqi üzrə Əməkdaşlıq Planı"nı Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayev və Çinin Milli İnkişaf və İslahat Komissiyasının sədri Cen Şancye imzalayıblar.

"Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Çin Xalq Respublikasının Milli İnkişaf və İslahat Komissiyası arasında yaşıl və aşağı karbonlu inkişaf əməkdaşlığına dair Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Çinin Milli İnkişaf və İslahat Komissiyasının sədri Cen Şancye imzalayıblar.

"Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Çin Xalq Respublikasının Sənaye və İnformasiya Texnologiyaları Nazirliyi arasında sənaye sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Çinin sənaye və informasiya texnologiyaları naziri Li Lıçen imzalayıblar.

"Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında beynəlxalq multimodal daşımalar haqqında Saziş"i Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Çinin nəqliyyat naziri Liu Vey imzalayıblar.

"Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Çin Xalq Respublikasının Kommersiya Nazirliyi arasında maneəsiz ticarət üzrə ikitərəfli əməkdaşlığın dərinləşdirilməsinə dair Anlaşma Memorandumu"nu və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Çin Xalq Respublikasının Kommersiya Nazirliyi arasında rəqəmsal iqtisadiyyatda investisiya əməkdaşlığının gücləndirilməsi haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Çinin kommersiya naziri Van Ventao imzalayıblar.

"Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) ilə Sinxua İnformasiya Agentliyi arasında xəbər mübadiləsi və əməkdaşlıq haqqında müqavilə"ni Azərbaycanın Çindəki səfiri Bünyad Hüseynov və Çinin Sinxua İnformasiya Agentliyinin prezidenti Fu Xua imzalayıblar.

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti ilə Çin Media Qrupu arasında Əməkdaşlıq Sazişi"ni Azərbaycanın Çindəki səfiri Bünyad Hüseynov və Çin Media Qrupunun prezidenti Şen Haysion imzalayıblar.

"Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Çin Xalq Respublikasının Milli Məlumat Administrasiyası arasında rəqəmsal iqtisadiyyat üzrə əməkdaşlığın gücləndirilməsinə dair Anlaşma Memorandumu"nu Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Çinin Milli Məlumat Administrasiyasının rəhbəri Lyu Lyehon imzalayıblar.

"Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhəri ilə Çin Xalq Respublikasının Sincan-Uyğur Muxtar Rayonunun Urumçi şəhəri arasında qardaşlaşmış şəhər münasibətlərinin qurulmasına dair Niyyət Məktubu"nu Azərbaycanın Çindəki səfiri Bünyad Hüseynov və Çinin Urumçi şəhərinin meri Yakub Paydulla imzalayıblar.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində aprelin 23-də Pekində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" imzalanıb.

## "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə 2025-ci il aprelin 22-dən 24-dək Çin Xalq Respublikasına dövlət səfəri edib.

Hər iki dövlət başçısı diplomatik münasibətlərin qurulmasından ötən 33 il ərzində Azərbaycan-Çin əlaqələrinin inkişafındakı nailiyyətləri yüksək qiymətləndirərək səmimi və dostluq mühitində danışıqlar apardılar. Hər iki ölkənin bir-birini prioritet təşkil edən, etibarlı və qarşılıqlı faydalı strateji tərəfdaş kimi nəzərdən keçirdiyini təsdiq edərək, qarşılıqlı siyasi etimadı daim möhkəmləndirməyə, qarşılıqlı dəstəyi gücləndirməyə, hər iki ölkənin xalqlarının mənafeyi naminə hərtərəfli əməkdaşlığı inkişaf etdirməyə hazır olduqlarını ifadə edərək, hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması barədə yekdilliklə qərar qəbul ediblər.

1. Tərəflər xalqlarının seçdiyi və milli şərtlərə uyğun olan inkişaf yolunu seçməkdə bir-birini möhkəm dəstəkləyir, hər iki ölkənin təməl maraqlarının, suverenliyinin, təhlükəsizliyinin və ərazi bütövlüyünün qorunmasında bir-birinə qətiyyətli dəstək verirlər. Azərbaycan tərəfi dünyada yalnız vahid bir Çinin mövcudluğunu, Tayvanın Çin ərazisinin ayrılmaz tərkib hissəsi olduğunu, Çin Xalq Respublikası hökumətinin bütün Çini təmsil edən yeganə qanuni hökumət olduğunu tanıyır, "Tayvanın müstəqilliyi"nin istənilən formasına qarşı qətiyyətlə çıxır və ölkənin yenidən birləşməsinin həyata keçirilməsində Çin hökumətini dəstəkləyir.

Çin Azərbaycan tərəfinin təklif etdiyi sülh gündəliyini qətiyyətlə dəstəkləyir və qarşıdurmaya yönəlmiş geosiyasi oyunları qeyri-məhsuldar hesab edir.

2. Tərəflər strateji oriyentir kimi dövlət başçılarının diplomatiyasını və ən yüksək səviyyədəki mühüm razılaşmaları rəhbər tutacaqlarını, ikitərəfli münasibətlərin davamlı və uzunmüddətli inkişafını təşviq edəcəklərini bəyan etdilər.

Tərəflər Çin Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında siyasi dialoqun möhkəmləndirilməsini dəstəkləyirlər. Hər iki tərəf praktiki əməkdaşlığı irəlilətmək üçün müntəzəm mexanizmlər çərçivəsində hökumətlər arasında əlaqələrin gücləndirilməsinə hazır olduqlarını təsdiqlədilər. Tərəflər beynəlxalq və regional təşkilatlarda fəaliyyətin əlaqələndirilməsi də daxil olmaqla, qanunverici orqanlar xətti üzrə təmasları və mübadilələri dəstəkləyir, Xarici İşlər nazirlikləri arasında müntəzəm məsləhətləşmələr keçirmək əzmindədirlər.

3. Tərəflər müasirləşməni birgə şəkildə irəli aparmaq və daha yüksək səviyyəli, yüksək dayanıqlılıq və uzunmüddətli sabitliyə malik yeni birgə inkişaf məkanı yaratmaq üçün "Bir kəmər, bir yol" təşəbbüsünün Azərbaycanın "İpək Yolunun dirçəldilməsi" dövlət inkişaf strategiyası və 2030-cu ilə qədər olan sosial-iqtisadi inkişaf Strategiyası ilə uyğunlaşdırılmasını möhkəmləndirmək barədə razılaşdılar.

4. Tərəflər ticari-iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya mexanizminin əlaqələndirici və rəhbər rolunu gücləndirməyi davam etdirməyə hazır olduqlarını ifadə etdilər. Ticarət, investisiyalar, yaşıl enerji və rəqəmsal iqtisadiyyat sahələrində qarşılıqlı fəaliyyətin gücləndirilməsini, eləcə də ticari-iqtisadi sahədə ikitərəfli əməkdaşlığın



yüksək keyfiyyətli inkişafına töhfə vermək üçün investisiya əməkdaşlığı üzrə İşçi qrupun yaradılması barədə qərar qəbul olundu. Tərəflər iki ölkənin ticarət və iqtisadiyyatının inkişafı üçün əlverişli şəraitləri birgə yaratmaqla ekoloji təmiz və yüksək keyfiyyətli kənd təsərrüfatı məhsullarının bazarlara qarşılıqlı çıxışını tədricən genişləndirmək niyyətindədirlər.

Tərəflər ticarət və investisiya sahələrində əməkdaşlığın dərinləşdirilməsi üçün institusional zəmanətlərin yüksək səviyyəsinin təmin edilməsi məqsədilə azad ticarətə dair sazişlə bağlı danışıqlara başlamağa hazır olduqlarını ifadə etdilər.

Çin, Çin Beynəlxalq İdxal Məhsulları Sərgisi (CIIE), Çin İxrac və İdxal Məhsulları Yarmarkası (Canton Fair), Çin Beynəlxalq Xidmətlər Ticarəti Yarmarkası (CIFTIS), o cümlədən Çin Beynəlxalq İnvestisiya və Ticarət Forumu (CIFIT) daxil olmaqla, Azərbaycanın Çində keçirilən böyük sərgi tədbirlərində fəal iştirakını alqışlayır, Azərbaycan tərəfindən Çin ərazisində açılan ticarət mərkəzləri və milli pavilyonlar platformasında, eləcə də Çin elektron ticarət şəbəkələrində tematik təqdimatların keçirilməsini və əlaqələrin qurulmasını dəstəkləyir. Azərbaycan Çinin aparıcı şirkətlərinin Azərbaycan ərazisində keçirilən böyük sərgilərdə və forumlarda iştirakını alqışlayır.

(Ardı 3-cü səhifədə)

# Azərbaycan Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri



(Əvvəli 2-ci səhifədə)

5. Tərəflər sənaye sahəsində əməkdaşlığı daim dərinləşdirməyə və sənayenin rəqəmsal transformasiyasını fəal şəkildə irəliləməyə hazır olduqlarını ifadə edirlər. Tərəflər neft-kimya, metallurgiya, tekstil sənayesi, əczaçılıq, maşınqayırma avadanlığı kimi sahələrdə iki ölkənin müəssisələrini kommersiya əsaslı əməkdaşlığın möhkəmləndirilməsində, dərinləşdirilməsində və genişləndirilməsində dəstəkləyirlər.

6. Tərəflər iki ölkənin enerji keçidini, dayanıqlı sosial-iqtisadi inkişafını təşviq edərək, bərpaolunan enerji mənbələri sahəsində əməkdaşlığı fəal şəkildə inkişaf etdirməyə və təmiz enerji sahəsində qlobal tərəfdaşlığın formalaşmasını birgə irəlilətməyə hazır olduqlarını bildirirlər.

7. Tərəflər iki ölkənin nəqliyyat sahəsindəki əməkdaşlığını yüksək qiymətləndirir və regional qarşılıqlı əlaqələri təşviq edərək, nəqliyyat infrastrukturunun inkişafına, logistika və daşınmaların səmərəliliyinin artırılmasına dəstəyi davam etdirməyə hazır olduqlarını bildirirlər.

Tərəflər Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında Beynəlxalq Multimodal Daşımalar haqqında Sazişin imzalanmasını yüksək qiymətləndirdilər. Çin birgə şəkildə təhlükəsiz, sabit, birbaşa və Çin-Avropa-Çin transxəzər ekspress-marşrutları yaradaraq, gömrük rəsmiləşdirilməsinin rahatlığı səviyyəsinin və yük daşımalarının səmərəliliyinin ardıcıl şəkildə artırılması məqsədilə Azərbaycan və marşrut boyunca yerləşən digər ölkələrlə əməkdaşlıq etməyə hazırdır. Hər iki tərəf beynəlxalq avtomobil daşımaları üzrə hökumətlərarası sazişin razılaşdırılmasının və bağlanmasının sürətləndirilməsində, Azərbaycan və Çin arasında avtomobil daşımaları üçün əlverişli şəraitin səviyyəsinin artırılmasında, ikitərəfli ticari-iqtisadi əməkdaşlıq üçün dayaq yaradılmasında maraqlıdır.

Tərəflər qeyd edirlər ki, Çinin keçirdiyi Nəqliyyatın Dayanıqlı İnkişafı üzrə Qlobal Forum dayanıqlı nəqliyyat sahəsində ikitərəfli əməkdaşlığın dərinləşdirilməsi üçün müsbət əhəmiyyətə malikdir.

8. Tərəflər elmi-tədqiqat müəssisələri və elm işçilərini qarşılıqlı maraq kəsb edən mövzularda birgə tədqiqatlar aparmağa, texnologiya transferinə və əldə olunan nailiyyətlərin kommersiyalaşdırılmasına təşviq edəcəklər, habelə birgə elmi-tədqiqat platformaları yaradacaqlar.

9. Tərəflər müxtəlif kanallar vasitəsilə qarşılıqlı tələbə mübadiləsini davam etdirmək, Azərbaycanda Konfutsi institutlarının inkişafına dəstək vermək və təhsil müəssisələrində Azərbaycan və Çin dillərinin tədrisini təşviq etmək, habelə iki ölkənin müxtəlif tipli təhsil müəssisələri arasında müxtəlif səviyyəli tərəfdaşlıq əlaqələrinin qurulması barədə razılığa gəldilər.

Tərəflər mədəni və yaradıcı kollektivlər xətti üzrə əməkdaşlığı təşviq edəcək, xalqlar arasında qarşılıqlı anlaşmanı dərinləşdirmək və sivilizasiyalararası mübadiləni təşviq etmək məqsədilə qarşılıqlı Mədəniyyət günlərinin keçirilməsini dəstəkləyəcəklər.

Tərəflər turizm siyasətinin əlaqələndirilməsini gücləndirməyə, bir-birinin ərazisində turizmin təşviqi üçün tədbirlərin təşkilinə imkan yaratmağa, turizm müəssisələri, səhvi assosiasiyalar və digər institutlar arasında profil əlaqələrini dəstəkləməyə, həmçinin ikitərəfli turist axınının və vətəndaşların qarşılıqlı səfərlərinin artırılmasında birgə fəaliyyət göstərməyə hazırdırlar.

Tərəflər səhiyyə, idman, kinematoqrafiya və televiziya sahələrində əməkdaşlığı genişləndirəcək, gənclər və akademik dairələr xətti üzrə dostluq əlaqələrini artıracaqlar.

Tərəflər qarşılıqlı səfərlər, informasiya və təcrübə mübadiləsi vasitəsilə media sahəsində əməkdaşlığın genişləndirilməsini dəstəkləyirlər.

Tərəflər insanlar arasında mübadilənin daha da sadələşdirilməsinə kömək etməyə hazır olduqlarını bildirirlər, bütün sahələrdə əlaqələrin və əməkdaşlığın aktivləşdirilməsi üçün təkan olacaq ümumvətəndaş pasportuna malik şəxslər üçün vizaların qarşılıqlı ləğvi haqqında hökumətlərarası Sazişin razılaşdırılmasını və imzalanmasını alqışlayırlar.

Tərəflər Heydər Əliyev Fondu ilə Xarici ölkələrlə dostluq üzrə Çin Xalq Assosiasiyası və ŞƏT-in Mehriban Qonşuluq, Dostluq və Əməkdaşlıq üzrə Çin Komitəsi arasında qurulmuş tərəfdaşlıq əlaqələrini, həmçinin Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin müvafiq Çin assosiasiyaları və institutları ilə əlaqələrinin genişləndirilməsini dəstəkləyirlər.

10. Tərəflər terrorizmin, separatizmin və ekstremizmin milli təhlükəsizliyə və regional sabitliyə ciddi hədə olduğunu və bu bəlanın qarşısının alınmasının və ona qarşı birgə mübarizə aparılmasının vacib olduğunu vurğuladılar. İki ölkənin hüquq-mühafizə orqanları və təhlükəsizlik xidmətləri arasında əlaqələri və mübadilələri gücləndirmək, narkotik cinayətləri, transmilli mütəşəkkil cinayətkarlıqla, həmçinin kibertəhlükəsizlik kimi çağırışlarla birgə mübarizə aparmaq zəruridir. Tərəflər əməkdaşlıq layihələrinin və iki ölkənin müəssisələrinin işçi heyətinin təhlükəsizliyini birgə təmin etməyə hazırdırlar.

Tərəflər humanitar minatəmizləmə sahəsində beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsinin vacibliyini vurğulayırlar, bu xüsusda Azərbaycan tərəfi Çin tərəfinin Azərbaycanın minatəmizləmə işinə dəstəyini yüksək qiymətləndirir, Çin tərəfi Azərbaycan tərəfinə maddi-texniki dəstək şəklində minatəmizləmə sahəsində potensialın möhkəmləndirilməsində bundan sonra da yardım göstərməyə hazırdır.

11. Çin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının (COP29) 29-cu sessiyasının uğurla keçirilməsi münasibətilə Azərbaycanı təbrik edir. Hər iki tərəf COP29-un nəticələrini iqlim dəyişikliyi ilə mübarizə üzrə qlobal fəaliyyətə mühüm töhfə verəcək tarixi nailiyyət və dönüş nöqtəsi kimi alqışlamışlar.

Tərəflər bütün ölkələri qlobal iqlim idarəçiliyi prosesini dəstəkləməyə, "BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası"na və "Paris Sazişi"nə uyğun olaraq öhdəlik və məsuliyyətləri tam və vicdanla yerinə yetirməyə çağırıblar. Tərəflər inkişaf etmiş ölkələri öz tarixi öhdəliklərinə ləyaqətlə yanaşmağa, inkişaf etməkdə olan ölkələrə maliyyə, texnoloji və intellektual dəstək verməyə, inkişaf etməkdə olan ölkələrə iqlim dəyişikliyinə qarşı mübarizə imkanlarının gücləndirməsində kömək etməyə çağırırlar. Tərəflər qlobal iqlim idarəçiliyinə böyük töhfə verməklə iqlim dəyişikliyi ilə mübarizə sahəsində ikitərəfli və çoxtərəfli əməkdaşlığı gücləndirməyə davam edəcəklər.

Çin tərəfi Azərbaycanın sədrliyi ilə COP29 çərçivəsində irəli sürülən "Dayanıqlı və sağlam şəhərlərin formalaşması üçün Multisektoral Fəaliyyət Yolları" təşəbbüsünü yüksək qiymətləndirir.

2026-cı ildə Bakı şəhərində 13-cü Ümumdünya Şəhərsalma Forumunun keçirilməsini nəzərə alaraq, Çin tərəfi Azərbaycan tərəfinə dəstəyini ifadə edib, sıx və səmərəli əməkdaşlığa hazır olduğunu təsdiqləyib.



12. Çin Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) tezliklə üzv olmasını dəstəkləyir. Tərəflər dünya iqtisadi düzənində baş verən dəyişiklikləri daha yaxşı əks etdirmək üçün beynəlxalq maliyyə arxitekturasında islahatın təşviqini dəstəkləyirlər. Tərəflər ticarət və investisiyaların liberallaşdırılmasını və sadələşdirilməsini dəstəkləyir, unilateralizm və proteksionizm, despotizm və dünya ticarəti qaydalarının pozulmasının əleyhinə çıxırlar, birgə rifah naminə çoxtərəfli ticarət sistemini birgə səylərlə müdafiə edirlər.

13. Tərəflər BMT mərkəzli dünya quruculuğunun və beynəlxalq hüquqa əsaslanan beynəlxalq nizamın və beynəlxalq münasibətlərin BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə əsaslanan əsas normalarının qorunmasına səy göstərir, hegemonluğa və güc siyasətinə qarşı çıxırlar. Tərəflər ümumbəşəri dəyərlərin - sülh, inkişaf, bərabərlik, ədalət, demokratiya və azadlığın təşviqinin lehinə çıxış edir, yeni növ beynəlxalq münasibətlərin və bəşəriyyətin vahid taleyi birliyinin yaradılmasına səy göstərirlər.

14. Tərəflər birgə müzakirə, birgə quruculuq və birgə istifadə prinsipinə sadiq qalaraq, çoxtərəfliliyə sadiqliyi saxlayaraq qlobal idarəetmə sisteminin təkmilləşdirilməsini təşviq etməyə hazırdırlar. Tərəflər BMT-nin mərkəzi əlaqələndirici rolunun, formalaşmaqda olan bazara sahib ölkələrin və inkişaf etməkdə olan dövlətlərin təmsilçilik və səsvermə hüquqlarının artırılması naminə çıxış edir, BMT və digər çoxtərəfli strukturlar çərçivəsində sıx qarşılıqlı fəaliyyəti davam etdirməyə hazırdırlar.

15. Azərbaycan Çin tərəfindən təklif olunan Qlobal İnkişaf Təşəbbüsünü, Qlobal Təhlükəsizlik Təşəbbüsünü və Qlobal Sivilizasiya Təşəbbüsünü fəal şəkildə dəstəkləyir və BMT-nin 2030-cu ilədək olan Dayanıqlı İnkişaf üzrə Gündəliyinin həyata keçirilməsini sürətləndirmək üçün səyləri birləşdirmək məqsədilə "Qlobal İnkişaf Təşəbbüsünün Dostları Qrupu"na qoşulmağa hazır olduğunu bildirir. Azərbaycan Çin tərəfi ilə qlobal təhlükəsizlik üzrə əlaqələr və qarşılıqlı fəaliyyət qurmağa, sülh və təhlükəsizlik üzrə birgə səylər göstərməyə hazırdır. Azərbaycan tərəfi Çinin BMT-də irəli sürdüyü "Sivilizasiyalararası Beynəlxalq Dialoq Günü"nün elan edilməsinə dair qətnaməni yüksək qiymətləndirir və sivilizasiyaların müxtəlifliyinə hörməti birgə müdafiə etməyə, humanitar mübadilə və əməkdaşlığı fəal şəkildə təşviq etməyə hazırdır. Çin mədəniyyətlərarası dialoqun təşviqi üçün qlobal platforma kimi "Bakı Prosesi" adlı təşəbbüsə uyğun olaraq, Azərbaycanın səylərini və bu təşəbbüs çərçivəsində çağırılan qlobal forumları dəstəkləyir.

16. Azərbaycan Çinin Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) sədrliyini dəstəkləyir və Çin tərəfinin ŞƏT-in keyfiyyətcə inkişafı üçün göstərdiyi əməli səylərini yüksək qiymətləndirir. Azərbaycan "ŞƏT-in Dayanıqlı İnkişaf İli" tədbirlərində fəal iştirak etməyə və Təşkilatın üzv ölkələri ilə hərtərəfli əməkdaşlığı dərinləşdirməyə hazır olduğunu bildirir. Çin Azərbaycanın ŞƏT-də hüquqi statusunun artırılmasını dəstəkləyir.

17. Çin Azərbaycanın Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsində (AQEM) sədrliyini dəstəkləyir və Azərbaycan tərəfinin AQEM-in inkişafına yönəlmiş "Daha Güclü AQEM: Asiyada qarşılıqlı əlaqə, rəqəmsallaşma və davamlı inkişaf" mövzusunda silsilə tədbirlərin keçirilməsi üzrə səylərini yüksək qiymətləndirir.

18. Azərbaycan Respublikasının Prezidenti Azərbaycan nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə və səmimi qəbula görə Çin Xalq Respublikasının Sədri Si Cinpinə təşəkkür etdi və öz növbəsində Sədr Si Cinpini hər iki tərəf üçün əlverişli vaxtda Azərbaycana səfərə dəvət etdi".

**Azərbaycan Respublikasının Prezidenti**

**Çin Xalq Respublikasının Sədri**

(Ardı 4-cü səhifədə)

# Azərbaycan Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri



(Əvvəli 3-cü səhifədə)

Aprelin 23-də Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva, qızı Leyla Əliyeva və digər ailə üzvləri Pekində Böyük Xalq Sarayı ilə tanış olublar.

Pekinin mərkəzində, Tiananmen meydanının qərb tərəfində yerləşən Böyük Xalq Sarayı Çinin ən yüksək səviyyədə dövlət tədbirlərinin və mərasimlərinin, o cümlədən Çin Kommunist Partiyasının qurultaylarının, ali qanunverici orqan olan Çin Xalq Nümayəndələri Yığıncağının illik iclaslarının keçirildiyi, xarici dövlətlərin rəhbərlərinin rəsmi qarşılanma mərasimlərinin təşkil olunduğu dövlət sarayıdır.

Çin Xalq Respublikasının qurulmasının 10-cu ildönümü ilə əlaqədar inşa edilmiş Böyük Xalq Sarayı 1959-cu ildə istifadəyə verilib. Çin xalqının milli birliyinin rəmzi olaraq dizayn edilmiş saray 3 hissədən ibarətdir. Kompleksə Böyük və Əsas auditoriumlar, Konqres, ziyafət, rəsmi qonaqların qarşılanması zalları, Çin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin ofis binası daxildir. Böyük Xalq Sarayında Çinin hər bölgəsinin adına zallar var.

Saray dövlət tədbirlərinin olmadığı vaxtlarda ayın müəyyən günlərində ictimaiyyətin ziyarəti üçün açıq olur.

* * *

Aprelin 23-də Pekində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə geniş tərkibdə görüşü olub.

Sədr Si Cinpin Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın inkişafını və əldə etdiyi nailiyyətləri məmnunluqla qeyd edib.

Söhbət zamanı ötən il Astanada keçirilmiş görüş əsnasında ölkələrimiz arasında strateji tərəfdaşlığa dair qəbul olunan Birgə Bəyannamə məmnunluqla xatırlanıb. Bu gün dövlət başçıları tərəfindən imzalanacaq Birgə Bəyanatda isə hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinin daha bir pillə yüksələcəyi qeyd edilib.

Ölkələrimizin beynəlxalq təşkilatlar, o cümlədən BMT, Şanxay Əməkdaşlıq Təşkilatı və digər təsisatlar çərçivəsində əməkdaşlıq məsələlərinə və qarşılıqlı dəstəklərinə toxunulub.

Çin Xalq Respublikasının Sədri Azərbaycanın Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsinə (AQEM) sədrliyini məmnunluqla vurğulayaraq, bu xüsusda əməkdaşlıq üçün geniş imkanların olduğunu bildirib.

Görüşdə Azərbaycanın və Çinin daim bir-birilərinin ərazi bütövlüyünü və suverenliyini dəstəklədikləri məmnunluqla vurğulanıb. Dövlətimizin başçısı "Vahid Çin" siyasətini həmişə dəstəklədiyini və Tayvanda keçirilmiş seçkiləri birmənalı şəkildə pislədiyini qeyd edib. Azərbaycan və Çinin terrorizm, ekstremizm və separatizmə qarşı birgə səylərlə mübarizəsi qeyd olunub.

Si Cinpin COP29-un Azərbaycanda uğurla keçirilməsi və Qlobal Cənubun maraqlarının təmsil olunması baxımından Azərbaycanın fəaliyyətini yüksək qiymətləndirib.

Prezident İlham Əliyev buna görə təşəkkürünü bildirərək, COP29 çərçivəsində qlobal iqlim gündəliyi üçün vacib qərarların qəbul edildiyini xatırlayıb.

Dövlətimizin başçısı öz növbəsində Si Cinpinin müdrik rəhbərliyi ilə Çinin inkişafına toxunub.

Ölkələrimiz arasında bərpaolunan enerji sahəsində əməkdaşlıq üçün böyük imkanların olduğu bildirilib, artıq Azərbaycanın müvafiq qurumları ilə Çin şirkətləri arasında bu sahədə çoxsaylı sənədlərin imzalandığı və praktiki əməkdaşlığın həyata keçirildiyi vurğulanıb.

Görüşdə Hökumətlərarası Komissiyanın sonuncu iclasına toxunulub, humanitar və mədəni sahələrdə əməkdaşlıq məsələləri qeyd olunub.

Ticarət dövriyyəmizin son dövrlərdə 20 faizdən çox artması müsbət qiymətləndirilib.

Çin Xalq Respublikasının Sədri "Bir kəmər, bir yol" layihəsini ilk dəstəkləyən ölkələrdən biri Azərbaycanın olduğunu məmnunluqla xatırlayıb. Bu çərçivədə ölkələrimiz arasında əməkdaşlıq məsələlərinin perspektivləri müzakirə olunub.

Son dövrlərdə Orta Dəhliz vasitəsilə Çindən Avropaya gedən yüklərin həcmində artım dinamikası məmnunluqla qeyd edilib və bu istiqamətdə əməkdaşlıq üçün yaxşı imkanların olduğu vurğulanıb.

Strateji tərəfdaşlığa dair Birgə Bəyanatda qeyd edildiyi kimi, Azərbaycanın Qlobal Təhlükəsizlik, Qlobal İnkişaf və Qlobal Sivilizasiyalar, həmçinin bəşəriyyətin vahid taleyi kimi Çinin təşəbbüslərini dəstəklədiyi bildirilib, bununla bağlı əməkdaşlıq məsələlərinə toxunulub.

Si Cinpin Prezident İlham Əliyevi Şanxay Əməkdaşlıq Təşkilatının Çində keçiriləcək Zirvə toplantısına və bu çərçivədə təşkil olunacaq bir sıra təntənəli tədbirlərə dəvət edib.

Dövlətimizin başçısı dəvəti məmnunluqla qəbul edib.

* * *

Aprelin 23-də Pekində Çin Xalq Respublikasının Sədri Si Cinpinin və birinci xanım Pen Liyuanın adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın şərəfinə rəsmi ziyafət verilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 23-də Pekində Çin Xalq Respublikasının Dövlət Şurasının Baş naziri Li Çianq ilə görüşüb.

Görüşdə ötən ilin iyulunda Azərbaycan və Çin arasında qəbul edilən strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin münasibətlərimizin yüksək səviyyəsini göstərdiyi bir daha vurğulanıb. Bu gün imzalanmış hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanatın əhəmiyyətinə toxunulub, onun münasibətlərimizin ruhunu və xarakterini əks etdirdiyi bildirilib. Qeyd olunub ki, münasibətlərimiz qısa vaxtda - bir ildən də az müddətdə strateji tərəfdaşlıqdan hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib və bu da öz növbəsində əlaqələrimizin inkişaf dinamikasını göstərir.

Azərbaycanın və Çinin bütün sahələrdə fəal qarşılıqlı fəaliyyət göstərən iki dost ölkə olduğu qeyd edilib, siyasi sahə ilə yanaşı, iqtisadi-ticari əlaqələrimizin inkişafından, həmçinin ötən il ölkələrimiz arasında əmtəə dövriyyəsinin 20 faiz artaraq 3,7 milyard dollar təşkil etməsindən və bu ilin 3 ayı ərzində əmtəə dövriyyəsinin 40 faizə yaxın çoxalmasından məmnunluq bildirilib.

Dövlətimizin başçısı qeyd edib ki, Çin bizim birinci idxal tərəfdaşımız olmaqla yanaşı, həm də dördüncü ticarət tərəfdaşımızdır. Prezident İlham Əliyev strateji tərəfdaşlıq haqqında Bəyannamənin bütün sahələrdə uğurla həyata keçirildiyini vurğulayaraq, Azərbaycanla Çinin Avrasiyanın bir çox ölkəsini əhatə edən nəqliyyat-logistika əməkdaşlığı sahəsində fəal səylər göstərdiyini deyib.

Söhbət zamanı beynəlxalq təşkilatlar, o cümlədən Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlıq, Azərbaycanın və Çinin həmişə bir-birinin ərazi bütövlüyünə və suverenliyinə dəstək göstərməsi, ölkəmizin "Vahid Çin" siyasətini daim dəstəklədiyi qeyd edilib. Terrorçuluq, ekstremizm və separatizmlə mübarizədə ölkələrimizin səylərinə toxunulub.

BMT əsaslı beynəlxalq münasibətlər sisteminin Azərbaycan və Çin tərəfindən dəstəkləndiyi vurğulanıb. Dövlətimizin başçısı bu xüsusda deyib ki, BMT Təhlükəsizlik Şurasının qərarlarının icra edilməsi mexanizmi yaradılmalıdır. Belə ki, Azərbaycan uzun müddət BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra edilməməsindən əziyyət çəkib.



Bakıda hökumətlərarası komissiyanın sonuncu iclasının və bu çərçivədə biznes-forumun keçirilməsi xatırlanıb. Həmin tədbirdə Azərbaycan və Çin şirkətləri arasında müxtəlif sahələr üzrə əməkdaşlığa dair müqavilələrin imzalandığı vurğulanıb.

Çinin Baş naziri Orta Dəhlizin əhəmiyyətinə toxunub və bu marşrut üzrə daşımaların artmasını qeyd edib.

Azərbaycan və Çinin Orta Dəhlizin yükötürmə imkanlarının daha da genişləndirilməsi istiqamətində birgə səylərinə toxunulub.

Görüşdə bərpaolunan enerji sahəsində, həmçinin neft-qaz sektorunda Azərbaycan ilə Çin şirkətləri arasında əməkdaşlıq imkanları və Çin texnologiyalarının ölkəmizdə geniş tətbiq olunması ilə bağlı məsələlər müzakirə edilib, bu sahədə böyük investisiya imkanlarının olduğu bildirilib.

Həmçinin ərazilərin minalardan təmizlənməsi istiqamətində əməkdaşlıq müzakirə edilib. Li Çianq qeyd edib ki, Çin tərəfi ərazilərin minalardan təmizlənməsi sahəsində humanitar dəstək göstərməyə hazırdır.

Azərbaycanın birtərəfli qaydada Çin vətəndaşlarına münasibətdə vizanın ləğv olunmasının ardınca iki ölkə arasında vizaların qarşılıqlı şəkildə ləğvi haqqında sənədin imzalanmasının əhəmiyyətinə toxunulub, bunun insanlararası təmasların və turizmin inkişafına mühüm töhfə verəcəyinə ümidvarlıq ifadə olunub.

Görüşdə kənd təsərrüfatı, o cümlədən baramaçılıq, pambıqçılıq, kənd təsərrüfatı texnikası sahələrində əməkdaşlıq məsələlərinə toxunulub. Çinin Azərbaycanın iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirdiyi siyasəti və ölkəmizin Rəqəmsal Transformasiya və Rəqəmsal İnkişaf Konsepsiyasını dəstəklədiyi vurğulanıb.

Söhbət zamanı mədəni-humanitar sahədə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb, Heydər Əliyev Fondunun xətti ilə Çində həyata keçirilən layihələr məmnunluqla qeyd olunub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 23-də Çin Xalq Respublikasının Ümumçin Xalq Nümayəndələri Yığıncağının Daimi Komitəsinin Sədri Cao Lıci ilə görüşüb.

Cao Lıci Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın davamlı inkişafını, beynəlxalq səviyyədə nüfuzunun artmasını, iqtisadi sahədə qazandığı nailiyyətləri, əhalinin rifah halının yaxşılaşdığını məmnunluqla qeyd edib. Bildirib ki, Çinlə Azərbaycan arasındakı əlaqələr səmimi dostluq və strateji tərəfdaşlıq münasibətləridir. O, iki ölkənin liderlərinin səyləri sayəsində bu gün əlaqələrimizin öz tarixinin ən yüksək inkişaf dövrünü yaşadığını deyib.

Prezident İlham Əliyev də öz növbəsində vurğulayıb ki, bu gün münasibətlərimiz artıq özünün ən yüksək inkişaf mərhələsinə - hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə qalxıb.

Dövlətimizin başçısı Azərbaycanın daim "Vahid Çin" siyasətini dəstəklədiyini və Tayvanda keçirilmiş seçkiləri pislədiyini vurğulayıb. Prezident İlham Əliyev Azərbaycanın və Çinin terrorçuluq, ekstremizm, separatizm və radikalizmə qarşı mübarizədə birgə səylərlə çıxış etdiklərini deyib.

Görüşdə ölkələrimiz arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığa toxunulub, Orta Dəhlizin əhəmiyyəti vurğulanıb. Son dövrlərdə Çin şirkətlərinin Orta Dəhliz üzrə daşımalarının 80 faizdən çox artdığı diqqətə çatdırılıb, ticarət dövriyyəsinin 20 faiz artımı məmnunluqla qeyd edilib.

Çinlə Azərbaycanın parlamentlərarası əməkdaşlığının, o cümlədən parlamentlərin dostluq qrupları və komitələri arasında əlaqələrin inkişafından məmnunluq ifadə olunub.

Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əməkdaşlığa toxunulub, bu xüsusda idarəçiliyin müxtəlif aspektləri üzrə təcrübə mübadiləsinin aparılmasının vacibliyi vurğulanıb, gənclər, mədəniyyət, idman sahələrində əlaqələrin inkişafı və Azərbaycan-Çin Birgə Universitetinin yaradılmasının perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Söhbət zamanı bərpaolunan enerji sahəsində əməkdaşlıq məsələləri qeyd olunub, Çinin "BYD" şirkətinin elektrik avtomobillərinin Azərbaycana ixracı və bir sıra elektrik avtobuslarının yerli səviyyədə istehsalı üçün strateji tərəfdaş kimi müəyyənləşdirildiyi vurğulanıb.

(Ardı 5-ci səhifədə)

# Azərbaycan Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri

(Əvvəli 4-cü səhifədə)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 23-də Pekində Xalq Qəhrəmanları Abidəsini ziyarət edib.

Abidənin yerləşdiyi meydanda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.





Azərbaycan Respublikasının və Çin Xalq Respublikasının Dövlət himnləri səsləndirilib.

Prezident İlham Əliyev abidənin önünə əklil qoyub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Pekində "China Energy Engineering Corporation Limited" ("Energy China") şirkətinin sədri Sonq Hailianq ilə görüşüb.

Görüşdə "China Energy Engineering Corporation Limited" şirkətinin Azərbaycanda hazırda bir neçə layihə həyata keçirdiyi vurğulanıb. Qeyd edilib ki, şirkət Xəzər dənizində 1 qiqavatlıq külək enerjisi meqalayihəsinin podratçısıdır. "China Energy Engineering Corporation Limited" Füzuli rayonunda Günəş enerjisi və digər layihələrə isə investisiya yatırıb.

Sonq Hailianq rəhbərlik etdiyi şirkət tərəfindən Azərbaycanla birlikdə enerji dəhlizlərində əməkdaşlıqla bağlı təkliflərlə çıxış edib.

Dövlətimizin başçısı "China Energy Engineering Corporation Limited" şirkəti ilə əməkdaşlığın prioritetliyinə və strateji xarakterinə toxunub.

Söhbət zamanı uzunmüddətli birgə enerji planlaşdırma layihəsi ilə bağlı fikir mübadiləsi aparılıb. Qeyd edək ki, Azərbaycan Prezidentinin Çinə dövlət səfəri çərçivəsində bununla da bağlı sənəd imzalanıb.

Görüşdə Azərbaycanda gələcəkdə enerji tədqiqat mərkəzinin yaradılması ilə bağlı məsələlər müzakirə olunub. Şirkətin suyun idarəedilməsində böyük təcrübəsi nəzərə alınaraq, bu sahədə də əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, fəaliyyət dairəsinə bərpaolunan enerji layihələri ilə yanaşı, hidrogen enerjisi, enerjinin saxlanması və iri elektrik şəbəkələrinin tikintisi kimi istiqamətlər daxil olan şirkətin 147 ölkədə 256 filialı var. Hazırda 416 layihəsi icra olunan şirkət Çinin bərpaolunan enerji bazarının 50 faizinə nəzarət edir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri aprelin 24-də başa çatıb.

Pekin Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı rəsmi şəxslər yola salıblar.

**AZƏRTAC-ın materialları əsasında**

# "Mühəndis təminatı üzrə zəruri tədbirlər plana uyğun olaraq icra olunur"

(Əvvəli 1-ci səhifədə)

**- Cənab polkovnik-leytenant, əvvəlcə Vətən müharibəsi haqqında danışaq. Müharibənin ilk günləri bölmələrimizin irəliləməsi üçün keçidlərin açılması, o cümlədən "Ohanyan səddi"nin yarılması zəruri idi.**

- Keçidlərin açılmasında, eləcə də "Ohanyan səddi"nin yarılmasında Azərbaycan Ordusunun Mühəndis Qoşunlarının hissə və bölmələrinin rolu əvəzedilməzdir. Belə bir ifadə var: mühəndis-istehkamçının ayağı dəyməyən yerdə qələbə ola bilməz. Bu səddin yarılması da məhz Böyük Qələbənin başlanğıcı oldu. Şəxsi heyətimiz qarşıya qoyulan döyüş tapşırıqlarını mühəndis-istehkam bölmələrinin müasir texnika və avadanlıqlarından istifadə edərək müvəffəqiyyətlə yerinə yetirdi. Belə ki, qoşunlarımızın hərəkəti üçün Mühəndis Qoşunlarında istifadə olunan İMR-3M markalı texnikalar, eyni zamanda, keçid açma vasitələri geniş tətbiq olunmuşdu. Bölmələrimizin peşəkar fəaliyyəti nəticəsində düşmənin keçilməz saydığı "Ohanyan səddi" qısa zaman ərzində tamamilə darmadağın edildi.

**- Vətən müharibəsinin tarixi qələbəmizlə başa çatması mühəndis-istehkam bölmələrinin qarşısına yeni tapşırıqlar qoydu. Öz yurd-yuvalarından didərgin düşmüş soydaşlarımızın ata-baba ocaqlarına qayıtması, onların həyati təhlükəsinin aradan qaldırılması üçün işğaldan azad olunmuş ərazilərimiz mina və partlamamış döyüş sursatlarından təmizlənməlidir. Bu istiqamətdə hansı işlər aparılır?**

- Vətən müharibəsindən sonra ərazilərimizin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi üçün həm xüsusi, həm də istehkam bölmələri yaradıldı. Bundan başqa, Mühəndis Qoşunları ilə yanaşı, aidiyyəti digər dövlət qurumları da bu işə cəlb olundular. Bu, çox məsuliyyətli, xüsusi diqqət tələb edən bir iş olduğu üçün planlı şəkildə davam etdirilir. Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələrinin fəaliyyəti nəticəsində azad edilmiş ərazilərdə 2020-2024-cü illər ərzində 46000 hektar ərazi mina və partlamamış döyüş sursatlarından tam təmizlənib. Təmizlənən ərazilərdə 36907 ədəd partlamamış döyüş sursatı, 10672 ədəd piyada əleyhinə və 3333 ədəd tank əleyhinə mina aşkarlanaraq məhv edilib. 2025-ci ilin birinci rübü ərzində isə 1177 hektar ərazi təmizlənib. Təxliyə yollarının daim işlək vəziyyətdə saxlanılması, avtomobil və döyüş texnikası kolonlarının təhlükəsiz və fasiləsiz hərəkətinin təmin edilməsi məqsədilə mütəmadi olaraq yollar qar örtüyündən təmizlənir, yeni təminat yolları mühəndis-istehkam bölmələri tərəfindən çəkilir. Ümumilikdə, hal-hazırda işğaldan azad olunmuş ərazilərin təmizlənməsi prosesi prioritet olaraq birinci növbədə əhalinin məskunlaşacağı və infrastrukturun qurulacağı ərazilərdə aparılır. Bunun üçün Nazirlər Kabineti tərəfindən təyin olunmuş ardıcıllığa əsasən, digər qurumlarla yanaşı, mühəndis-istehkam bölmələri həmin ərazilərin mina və döyüş sursatlarından təmizlənməsi fəaliyyəti ilə məşğul olurlar.



**- Məlumdur ki, Ermənistan tərəfi 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatdan sonra da bölgəni minalarla çirkləndirməyə davam etdi. Onlar tərəfindən ərazilərin minalanmasında standartlara əməl olunmadığı da bəllidir. Bu vəziyyətdə Mühəndis Qoşunlarının hissə və bölmələri hansı çətinliklərlə rastlaşırlar?**

- Bəli, Ermənistan silahlı birləşmələri tərəfindən qurulmuş mina sahələri qeyri-standart olaraq hazırlanmış, eyni zamanda, bu sahələrin xəritələri bu günə qədər Azərbaycan tərəfinə təhvil verilməmişdir. Təhvil verilmiş xəritələrdə isə 25%-nin düzgün olduğunun şahidi oluruq. Bu da ərazilərimizin mina və partlamamış döyüş sursatlarından təmizlənməsində böyük çətinliklər yaradır. Ancaq əlimizdə olan mövcud vasitələr - xüsusilə, MEMATT markalı mexaniki minatəmizləmə texnikalarından istifadə edərək bu ərazilərin mühəndis kəşfiyyatını aparır, aşkar olunan mina sahələrinin təmizlənməsini həyata keçiririk.

**- Ermənistan silahlı birləşmələri ərazilərimizi minalayarkən mülki əhalini də hədəfə alırdı. İstər müharibə dönəmində, istərsə də ondan sonrakı dövrdə evlərin, məzarlıqların, su hövzələrinin müxtəlif partlayıcı qurğularla çirkləndirilməsi barədə kifayət qədər görüntülər yayıldı. Azad olunmuş ərazilərdə mülki şəxslərin həmin təhlükələrdən qorunması üçün hansı addımlar atılır?**

- Bunun üçün Mühəndis Qoşunlarında Vətən müharibəsindən sonra mina və əldəqayırma partlayıcı maddələrlə mübarizə bölmələri yaradılıb. Bu bölmələrimizin şəxsi heyəti müxtəlif kurslar keçdikdən sonra ərazilərdə qeyd etdiyiniz mina və kustar üsullarla hazırlanmış partladıcı qurğuların zərərsizləşdirilməsi üzrə fəaliyyətlərin icrası ilə məşğul olurlar.

**- Mühəndis-istehkam bölmələrinin təhlükəsizliyi və ərazilərin daha tez təmizlənməsi üçün istifadə olunan üsullar barəsində fikirlərinizi bilmək istərdik.**

- Ümumiyyətlə, minatəmizləmə fəaliyyəti mürəkkəb və çətin bir prosesdir. Mühəndis Qoşunlarının hissə və bölmələri bunun üçün tam hazırlanıb. Ərazilərimizin bir qismi həddindən çox çirklənib. Burada həm mina sahələrindən, həm də partlamamış döyüş sursatlarından söhbət gedir. Minatəmizləmə zamanı müxtəlif vasitələrdən istifadə edirik. Qeyd etdiyim kimi, qardaş Türkiyədən alınan MEMATT mexaniki minatəmizləmə maşınından istifadə olunur. Eyni zamanda, təmizləmə işlərinə minaaxtaran itlər də cəlb olunub. Bildirmək istəyirəm ki, istifadə etdiyimiz avadanlıqlarımız da tam müasirləşdirilib.

**- 2023-cü ilin antiterror əməliyyatından sonra ərazilərimizə baxış zamanı Qarabağ iqtisadi rayonunda Ermənistan silahlı qüvvələri və qeyri-qanuni erməni silahlı dəstələrindən xeyli sayda döyüş sursatlarının qaldığı aşkar olunub. Həmin sursatların zərərsizləşdirilməsi hansı qaydada həyata keçirilir?**

- Mühəndis Qoşunlarının bölmələri tərəfindən Qarabağ iqtisadi rayonunda aşkar olunan çoxlu sayda döyüş sursatlarının təlim mərkəzlərində təhlükəsizlik qaydalarına ciddi riayət etməklə məhv edilməsi prosesi həyata keçirilir. Ermənistan istehsalı olan, xüsusilə piyada əleyhinə minalar, müxtəlif tipli kustar üsullarla hazırlanmış partlayıcı atımlar, partlatma vasitələri mərhələli şəkildə Mühəndis Qoşunlarının bölmələri tərəfindən həm partlayış, həm də yandırma üsulları ilə zərərsizləşdirilir.

**- Müharibədən sonrakı dövr üçün Mühəndis Qoşunlarının hissə və bölmələrinin həyata keçirdiyi fəaliyyətlər nədən ibarətdir?**

- Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə torpaqlarımız işğaldan azad olunaraq, ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa etdik. Zəruri olan istiqamətlərdə 1000 kilometrdən artıq yol çəkilərək qoşunlarımızın istifadəsinə verilib. Həmin yolların istər qış, istərsə də digər mövsümlərdə daim işlək vəziyyətdə saxlanılması üçün mühəndis təminatı üzrə zəruri tədbirlər plana uyğun olaraq icra olunur. Bu, Mühəndis Qoşunlarının hissə və bölmələrinin əsas tapşırıqlarından biridir. Bundan başqa, tərtiblənmə yerlərində bölmələrimizin fortifikasiya işləri və mühəndis təminatı tapşırıqlarının icrası uğurlu şəkildə həyata keçirilir.

**- Cənab polkovnik-leytenant, Mühəndis Qoşunlarının hissə və bölmələri haqqında geniş məlumat verdiyiniz üçün sizə təşəkkür edir, tarixi yurd-yerlərimizin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi, eləcə də digər mühəndis təminatı üzrə tapşırıqların yerinə yetirilməsi kimi çətin, məsuliyyətli, bir o qədər də şərəfli xidmətinizdə sizə uğurlar arzulayırıq.**

- Çox sağ olun.

**Müsahibəni apardı:
Tamilla HÜSEYNLİ
"Azərbaycan Ordusu"**

# General Əlağa Şıxlinskinin anadan olmasının 160 illiyi qeyd olunub







Cari ilin fəaliyyət planına əsasən, Azərbaycan Ordusunun qoşun növləri, hərbi birlik və birləşmə, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində tam artilleriya generalı Əlağa Şıxlinskinin anadan olmasının 160 illik yubileyinə həsr olunmuş silsilə tədbirlər keçirilib.

Tədbirlərdə Ümummilli Lider Heydər Əliyevin və respublikamızın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Tədbir iştirakçıları general Əlağa Şıxlinskinin məzarını ziyarət edib, üzərinə tər qərənfillər düzərək xatirəsinə hörmət və ehtiram nümayiş etdiriblər.

Çıxış edənlər general Əlağa Şıxlinskinin həyat və fəaliyyətindən geniş söhbət açıb, onun xalqımız qarşısındakı tarixi xidmətlərindən ətraflı danışıblar.

Qeyd olunub ki, dünya hərb elminə tarixi nailiyyətlər qazandırmış görkəmli həmyerlimiz general Əlağa Şıxlinski "Artilleriyanın Allahı" sayılırdı. Adı Azərbaycanın şanlı hərb tarixinə qızıl hərflərlə həkk edilən görkəmli hərb xadimi Əlağa Şıxlinski Birinci Dünya müharibəsi cəbhələrində, Port-Arturun müdafiəsində misilsiz qəhrəmanlıq nümunələri göstərərək, düşmən həmlələrinin dönə-dönə dəf olunmasında top artilleriyasını idarə etməklə qələbələr qazandırmışdı. 1918-ci il iyunun 26-da yaradılan Əlahiddə Azərbaycan Korpusunun komandiri təyin edilən tam artilleriya generalı Əlağa Şıxlinskinin ilk milli ordu hissələrinin formalaşmasında xidmətləri misilsizdir. Azərbaycan Xalq Cümhuriyyəti ordusunun yaradılmasında və formalaşmasında, Bakının erməni-bolşevik işğalçı qüvvələrindən azad edilməsində görkəmli general zəngin hərbi təcrübəsini tətbiq edərək, döyüş salnaməsi yaradıb, milli ordu quruculuğuna əvəzsiz töhfələr bəxş edib. Hərb elminin mahir bilicisi olan Əlağa Şıxlinski ömrünün son illərində "Xatirələrim" adlı hərbi memuarını xalqımıza ədəbi yadigar qoyub.

**"Azərbaycan Ordusu"**

# Şəhidlər xiyabanında Milli Qəhrəman Albert Aqarunovun xatirəsi anılıb






Aprelin 25-də Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun doğum günü ilə əlaqədar Şəhidlər xiyabanında anım mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, anım mərasimində qəhrəmanın ailə üzvləri, cəbhə yoldaşları, veteran tankçılar, şəhid ailələri, döyüşlərdə yaralananlar və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Müdafiə Nazirliyinin hərbi qulluqçuları, Veteran Tankçılar İctimai Birliyinin üzvləri, Nərimanov rayon İcra Hakimiyyətinin, Dağ Yəhudiləri Dini İcmasının və Diasporla İş üzrə Dövlət Komitəsinin nümayəndələri və digər iştirakçılar əvvəlcə Milli Qəhrəman Albert Aqarunovun Şəhidlər xiyabanındakı məzarını ziyarət ediblər.

Tədbirdə Bakı şəhəri Dağ Yəhudiləri dini icmasının sədri Milix Yevdayev Azərbaycanın dünyada dini müxtəlifliyin harmoniyasını özündə əks etdirən dövlət olduğunu qeyd edib: "Azərbaycan xalqının yüksək tolerantlığının, ölkədəki multikultural mühitin nəticəsidir ki, biz Aqarunovun məzarı başında həm müqəddəs "Tövrat"ımızdan, həm də "Qurani-Kərim"dən dualarla onu yad etdik. Onunla bərabər bütün qəhrəmanlarımızı xatırlayırıq. Azərbaycanda yaşayan xalqlar necə ki, bu vaxta qədər ölkənin xoşbəxtliyi üçün mübarizə aparıblar, bundan sonra da Azərbaycan xalqı ilə birgə həmişə çiyin-çiyinə olacağıq".

Veteran Tankçılar İctimai Birliyinin sədri Hacı Əzimov, Aqarunovun batalyon komandiri Albertin anım tədbirlərinin hər il olduğu kimi, bu il də təntənəli şəkildə təşkil edildiyini vurğulayıb: "Allah bütün şəhidlərə rəhmət eləsin, onların qanı-canı bahasına torpaqlarımız işğaldan azad olundu. Albert Şuşa uğrunda həlak olmuşdu. 2020-ci ildə qəhrəman əsgərlərimiz Şuşanı azad etdilər. Qüdrətli ordumuz 44 günlük müharibədə torpaqlarımızı düşməndən təmizlədi".

Albert Aqarunovun qardaşı Rantik Aqarunov Alberti unutmadıqlarına, onu xatırladıqlarına görə Azərbaycan xalqına təşəkkürünü bildirib. "Hər il onu yad edənlərin sayı artır. Biz 8 qardaş olmuşuq. Ən kiçiyimiz Albert idi. Şən insan idi, Vətənini çox sevirdi. Elə bu Vətən uğrunda da həlak oldu", - deyə Rantik Aqarunov əlavə edib.

*Tarix yazan oğullar*

# Vətənə sevgisindən güc aldı, şəhidlik zirvəsinə ucaldı

Vətən… Adı gələndə sözlər susar, tarix danışar. Hər daşında, hər qarışında bir iz, uğur, qələbə, müqəddəslik var. Vətən insanın qanad açıb pərvazlandığı ruhudur, hüzurudur, varlığıdır. Vətən bizim yolumuzdur, yurdumuzdur, yuvamızdır...

Vətən sevgisindən danışanda yaradıcılığının baş qəhrəmanı Azərbaycan olan böyük şairimiz, Vətən mövzusunda yazdığı şeirləri dillər əzbəri olan Məmməd Arazın

*Vətən mənə oğul desə*
*nə dərdim,*
*Mamır olub qayasında*
*bitərdim*

- misrasını xatırlayıram. Bəzən bu torpaq bizi bağrına basar, bəzən də sınağa çəkər. Amma bir həqiqət heç zaman dəyişməz. Biz Vətən üçün doğulmuşuq. Vətən bizə oğul desə, bu fəxrin, bu ağır məsuliyyətin qarşısında qətiyyətlə xidmət edərik. Vətənin qayasında bir mamır kimi bitmək üçün bir ömrü ona qurban verərik. O mamır hər daşda bir tarix saxlayar, hər sükutda bir fəryad yaşadar. Bu tarix şücaətlə, qanla, canla, ağrıyla, göz yaşıyla, igidlikdən doğan şanlı Zəfərlə yazıldı...

...Vətəni qorumaq onu sevmək, ayaq basdığın torpağa ikiəlli sarılmaqdır. Bu sevginin ən ümdə zirvəsi, müqəddəsliyi Vətənin müdafiəsində dayanmaq, ərazi bütövlüyümüzü inamla qorumaqdır. Dağları aşan qətiyyətli addımlar, gecəni səngərdə qarşılayan gözlər, səssizliyə sədaqət andı içən ruhlar bu torpağın nəfəsi, bu xalqın qürur yeridir. Xalqımızın güvənc yeri, müstəqilliyimizin qarantıdır Vətən müdafiəçiləri.

Vətənin hər bir igid oğlu bu Vətənin özü olur, nəfəsi olur. Qarlı zirvələrdə silah tutan əllər, səngərlərdə səssiz qalan dualar, sipər olan igidlər bu torpağın ən dəyərli miraslarıdırlar. Və bu mirasın ən müqəddəs səhifəsini əbədi yazanlar şəhidlərimizdir. Bu şəhidlərimizdən biri də, həmyerlisi Məmməd Arazın dediyi kimi, Vətən qayasına mamır olan Elşən Əziz oğlu Məmmədovdur.



Elşən 21 aprel 1999-cu ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda anadan olub. Uşaqlığından hərbə olan marağı onu hərbi təhsil almağa sövq edib. O, 2016-cı ildə Heydər Əliyev adına Hərbi Liseyi bitirib. Liseydə oxuduğu illərdə silah tutmaqla yanaşı, mədəni, əxlaqi dəyərləri öyrənib, fiziki hazırlığını artırmağın yollarını bilib. Vətənə xidmətə olan həvəsi bununla kifayətlənməyib, 2020-ci ildə indiki Heydər Əliyev adına Hərbi İnstitutunu və Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikasının müdafiə nazirinin müvafiq əmri ilə Elşən Məmmədova "leytenant" hərbi rütbəsi verilib... O, 44 günlük Vətən müharibəsinin ilk günündən Xocavənd və Füzuli rayonlarının yaşayış məntəqələrinin işğaldan azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Komandirlik etdiyi bölmə qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gələ bilib. 2020-ci il oktyabrın 21-də Elşən Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub. Böyük Zəfəri əldə etdiyimiz 44 günlük müharibədə iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Məmmədov Elşən Əziz oğlu Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

Bu gün Vətənin igid oğulları kimi, şəhid Elşən Məmmədovun da adı hər bir Azərbaycan vətəndaşının qəlbində əbədi yaşayır. Həmin igidlərin sayəsində bu gün işğaldan azad edilmiş torpaqlarımızda Azərbaycanın şanlı üçrəngli bayrağı əzəmətlə dalğalanır. O torpaqlara, dədə-baba yurdlarımıza fəxrlə ayaq basa bilirik. Biz dəyərli şəhidlərimizin qarşısında baş əyirik.

**Şəlalə DÜNYAMALIYEVA**
**"Azərbaycan Ordusu"**

# Bakıda Azərbaycan və Özbəkistan Müdafiə Nazirlikləri nümayəndələrinin görüşü keçirilib



Bakıda Azərbaycan və Özbəkistan Müdafiə Nazirlikləri nümayəndə heyətləri arasında işçi görüş keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, cari il üçün imzalanmış ikitərəfli hərbi əməkdaşlıq planına əsasən keçirilən tədbirdə Müdafiə Nazirliyi Hərbi Strategiya və Müdafiə Planlaşdırması İdarəsi tərəfindən qonaqlara Azərbaycan Ordusunda müdafiə planlaşdırılması sahəsində görülən işlər və bu istiqamətdə həyata keçirilən layihələrin idarə olunması ilə bağlı geniş brifinq təqdim olunub.

Görüşdə qarşılıqlı əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb, qonaqları maraqlandıran suallar cavablandırılıb. Yekunda qarşılıqlı olaraq hədiyyələr təqdim olunub, xatirə şəkli çəkdirilib.

# Hərbi qulluqçumuz NATO Müdafiə Kollecinin Regional Əməkdaşlıq kursunu uğurla başa vurmuşdur




Cari ilin 24 aprel tarixində İtaliya Respublikasının paytaxtı Roma şəhərində yerləşən NATO Müdafiə Kollecinin növbəti buraxılışı keçirilmişdir.

Müdafiə Nazirliyi xəbər verir ki, Azərbaycan Ordusunun hərbi qulluqçusu polkovnik-leytenant Elnur Xudeynatov 33-cü NRCC Nato Regional Əməkdaşlıq kursundan müvəffəqiyyətlə məzun olmuşdur.

Qeyd edək ki, Azərbaycan Respublikası Müdafiə Nazirliyi Roma şəhərində yerləşən NATO Müdafiə Kolleci ilə artıq uzun illərdir əməkdaşlıq edir. Hərbi qulluqçularımızın bu kurslarda iştirakı Azərbaycan-NATO tərəfdaşlığının bariz göstəricisidir. Bu kollecdən məzun olan zabitlərimiz Azərbaycan Silahlı Qüvvələri sıralarında layiqincə hərbi xidmət keçirlər.

# Azərbaycan Ordusunda hərbiləşdirilmiş kros birinciliyi keçirilib








Cari ilin hazırlıq planına uyğun olaraq, Azərbaycan Ordusunun "Qaraheybət" Təlim Mərkəzində hərbi qulluqçular arasında məsafəli qaçış üzrə "Hərbiləşdirilmiş kros birinciliyi" keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, tədbir Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb. Daha sonra şəxsi heyətə yarışın şərtləri izah olunub.

Plana əsasən, yarış çərçivəsində 3000 metrlik məsafədə qaçış, atıcı silahdan atəş və qumbaraatma üzrə fəaliyyətlər icra edilib.

Hərbi qulluqçuların döyüş hazırlığı səviyyəsinin artırılması məqsədi daşıyan bu birincilikdə iştirakçılar yüksək peşəkarlıq nümayiş etdirərək qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetiriblər.

Yarışın yekununda fərqlənən hərbi qulluqçular və komandalar kubok, fəxri fərman və diplomlarla mükafatlandırılıblar.



*Fiziki hazırlıq*

# Yaradılan şərait onları idmanla məşğul olmağa daha da həvəsləndirir

(Əvvəli 1-ci səhifədə)

"N" hərbi hissəsində günün nizam qaydalarına uyğun olaraq keçirilən döyüş, ictimai-siyasi, taktiki və atəş hazırlıqları dərsləri ilə yanaşı, fiziki hazırlıq məşğələsinin də yüksək səviyyədə təşkil olunduğunun şahidi oldum. İdman şəhərciyində əsgərlər cavabdeh zabitin rəhbərliyi ilə təyin olunmuş formada düzüldülər. Onlar isinmə və gərilmə hərəkətləri yerinə yetirildikdən sonra turnikdə, paralel qollarda və digər alətlərdə idman hərəkətlərini böyük həvəs və çevikliklə icra edirdilər. Bu mənzərə hər kəsdə əminlik yaradır ki, şəxsi heyətin fiziki hazırlığı yüksək səviyyədidir.

Şamaxı rayonundan müddətli həqiqi hərbi xidmətə çağırılan əsgər Fərid Məmmədov qeyd etdi ki, idman saatlarında fiziki hazırlığını daha da artırmağa səy göstərir. "Yüksək döyüş hazırlığı digər hərbi biliklərlə yanaşı, fiziki güc, çeviklik və iradə tələb edir. Bu keyfiyyətlərə isə mütəmadi olaraq idmanla məşğul olduqda yiyələnmək olar. Əbəs yerə deyilməyib ki, idman sağlamlıqdır. İdman hərəkətlərini etdikdən sonra insan həm gümrahlaşır, əhval-ruhiyyəsi yüksəlir, həm də pis vərdişlərdən uzaq olur. Hərbi qulluqçu olaraq isə idman bizim üçün daha vacibdir. Çünki istənilən döyüş tapşırığını hər an yerinə yetirməyə hazır olmalıyıq. Bunun üçün də fiziki göstəricilərimizi artırmalı, sağlam və güclü olmalıyıq. Komandanlıq tərəfindən hərbi hissəmizdə idmanla məşğul olmağımız üçün hər cür şərait yaradılıb. Bu da fiziki hazırlıq məşğələsinin yüksək səviyyədə təşkil olunmasına zəmin yaradır, bizi idmana daha da həvəsləndirir".

Tərtər rayonundan ordu sıralarına çağırılan Fərid Atazadənin idman hərəkətlərini yerinə yetirən zaman yüksək bacarıq nümayiş etdirməyi diqqətimizi çəkdi. Söhbət əsnasında öyrəndik ki, o, hərbi xidmətə gəlməzdən əvvəl də idmanla məşğul olub. "İdmanla məşğul olmaq fiziki gücümüzü və özgüvənimizi artırır. Sıra hazırlığını, bizə təhkim olunan silahlardan istifadə etməyi öyrənməklə yanaşı, fiziki vərdişlərimizi də artırmalıyıq ki, öyrəndiklərimizi döyüş meydanında cəld və zamanında tətbiq edə bilək. Çünki döyüş zamanı verilən tapşırıq ilə anidən bir mövqedən digər bir mövqeyə öz yerini tez bir zamanda dəyişmək, özünə yeni mövqe tutmaq və digər fəaliyyətləri yerinə yetirmək çəldlik və yüksək fiziki güc tələb edir. Bunu icra etmək üçün də hər gün idmanla məşğul olur, hazırlığımızı daha da artırmaq üçün həvəslə məşq edirik", - əsgər Fərid Atazadə bildirdi.



İsmayıl Bayramov isə əslən Şəki rayonundandır. İsmayıl idmana olan sevgisinin futbolla başladığını vurğuladı. "Hələ uşaq yaşlarımdan bu idman növünə marağım olub. Həm oynamağı, həm də izləməyi sevirdim. Burada bizim üçün hər şey düşünülüb və yüksək səviyyədə təşkil olunub. Komandirlərimiz bizə yüksək diqqət göstərir, qayğılarımızla yaxından maraqlanırlar. Belə şərait də mənəvi-psixoloji hazırlığımıza müsbət təsir edir. Yüksək əhval-ruhiyyədə xidmət edir, bacarıqlı əsgərlər kimi formalaşırıq. Bütün əsgər yoldaşlarım adından deyirəm ki, biz qalib Azərbaycan Ordusunun sıralarında xidmət etdiyimiz üçün fəxr edirik", - əsgər dedi.

Əsgərlər Əliabbas Aslanov, Cavanşir Abdullayev və başqaları da idmana olan həvəslərindən, bölmənin həyəti arasında olan sağlam mühitdən, hərbi hissədə mövcud olan yüksək şəraitdən ağızdolusu danışdılar. Hərbi hissədə gördüklərimiz ordumuzun bütün bölmələrində əsgərlərimizin gündəlik fəaliyyətlərinin günün nizam qaydalarına uyğun olaraq səmərəli təşkil olunduğunun bariz nümunəsi və sübutudur.

**Baş leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**

# Hərbi vəzifəlilərlə keçirilən toplanışda praktiki məşğələlərə xüsusi diqqət yetirilir





(Əvvəli 1-ci səhifədə)

Müxtəlif təlim sahələrində baş tutmuş məşğələlər zamanı əvvəlcə hərbi vəzifəlilərə döyüş zamanı ilkin tibbi yardımın göstərilməsi qaydaları öyrədilib, yaralıların ərazidən təxliyə edilməsi üsulları məşq etdirilib, eləcə də Azərbaycan Ordusunun mühəndis bölmələrinin silahlanmasında olan müasir xüsusi vasitələr barədə geniş məlumat verilib.

Məşğələlər zamanı hərbi vəzifəlilər bölmələrimizin silahlanmasında olan atıcı silahların natamam sökülüb-yığılması üzrə praktiki vərdişlərini sınayıblar, həmçinin fərdi kimyəvi mühafizə vasitələrindən istifadə qaydalarını öyrəniblər.

Hərbi vəzifəlilərlə maarifləndirici söhbətlər aparıldıqdan və təhlükəsizlik qaydaları çatdırıldıqdan sonra onlar müxtəlif atıcı silahlardan praktiki atış çalışmalarını müvəffəqiyyətlə icra ediblər.

Plana uyğun olaraq, təlim iştirakçılarının döyüş hazırlığı səviyyəsinin, bilik və bacarıqlarının artırılması, praktiki vərdişlərinin təkmilləşdirilməsi, eləcə də ordumuzun arsenalına yeni daxil edilmiş silahlarla tanış olmaq, onların döyüş tətbiqini öyrənmək məqsədilə keçirilən təlim toplanışı davam edir.

## **Türkiyə Müdafiə Nazirliyi:** 1915-ci il hadisələri zamanı ermənilərin qətlə yetirdikləri günahsız türklərin xatirəsini anırıq

Türkiyə Milli Müdafiə Nazirliyində Osmanlı dövlətinin hakimiyyətdə olduğu son illərdə ermənilər tərəfindən qətlə yetirilmiş türklərin xatirəsi anılıb.

AZƏRTAC xəbər verir ki, aprelin 24-də mətbuat üçün yayılmış bəyanatda qardaş ölkənin müdafiə qurumu erməni quldur dəstələri tərəfindən Anadoluda törədilmiş qanlı cinayətlərə diqqət çəkib.

"1915-ci il hadisələri zamanı ermənilər tərəfindən qətlə yetirilmiş müdafiəsiz və günahsız türkləri bir daha xatırlayırıq", - deyə Türkiyə Milli Müdafiə Nazirliyi qeyd edib.

## Rusiya Müdafiə Nazirliyi general-mayor Həzi Aslanov haqqında materiallar dərc edib





00192

155

Представляется к присвоению звания ГЕРОЯ СОВЕТСКОГО СОЮЗА с вручением ордена ЛЕНИНА и медали "ЗОЛОТАЯ ЗВЕЗДА"

Подполковник АСЛАНОВ Ази Агадович - Командир 55 Отдельного танкового полка.

За героическое и умелое руководство в боях своим полком. Полком подбито и сожжено только в районе Верхне-Кумская с 15-19.12. 30 танков, 50 автомашин и уничтожен батальон фашистов. Все вышеуказанное нами наблюдалось лично в течение всех боев в районе Верхне-Кумская, а также известно от непосредственных начальников, командиров полков.

ЗАХАРОВ

ВОЛЬСКИЙ

Верно: Начальник 1 отделения 4 Отдела ГУК
Майор (Лобинцев)

Присвоено звание Героя Советского Союза с вручением Ордена Ленина и медали „Золотая Звезда"
Указ от 22.12.42 г.

*Rusiya Müdafiə Nazirliyi "Qranitdə əbədiləşdirilən adlar" tarixi-maarifləndirici layihəsi çərçivəsində Stalinqrad döyüşündə qələbənin qazanılmasında əvəzsiz xidmətləri olan iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru, azərbaycanlı Həzi Aslanovun qəhrəmanlıq şücaətindən bəhs edən materiallar dərc edib.*

AZƏRTAC xəbər verir ki, nəşrdə 1942-ci ilin dekabrında polkovnik-leytenant Həzi Aslanovun komandanlığı ilə 55-ci Əlahiddə tank alayının Stalinqrad yaxınlığında mühasirəyə alınmış vermaxtın 6-cı ordusunu yarıb keçməyə çalışan "Don" alman qoşun qrupuna uğurla müqavimət göstərdiyi qeyd edilib. Azərbaycanlı komandirin tabelində olan və diqqətlə kamuflyaj edilmiş pusqulardan fəaliyyət göstərən tankçılar düşmənin 50-yə yaxın tankını məhv ediblər. Həzi Aslanovun alayı şiddətli hava hücumlarına tab gətirib və mühasirədən sonuncu xilas ola bilib. Bu döyüşlərə görə Həzi Aslanov Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Daha sonra, 1944-cü ilin yayında general-mayor Həzi Aslanov Belarusun işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə yenidən fərqlənib və ikinci "Qızıl Ulduz" qəhrəman mükafatına namizəd göstərilib. Lakin 1945-ci il yanvarın 24-də Latviyada aldığı ağır yara onun üçün ölümcül olub və səhra xəstəxanasında dünyasını dəyişib. İkinci Sovet İttifaqı Qəhrəmanı adı ona ölümündən sonra, 1991-ci ildə verilib.

Əfsanəvi komandirin xatirəsi bir sıra şəhərlərdə - Bakıda, Lənkəranda, Belarusun Vileykasında, Volqoqradda əbədiləşdirilib.

## "Koqnitiv müharibələrin əsas hədəfi çox vaxt ailə olur..."

Yeni dövrün savaş növü olan koqnitiv müharibələrin əsas hədəfi çox vaxt ailə olur və bu da təsadüfi deyil. Ailə cəmiyyətin kollektiv yaddaşını daşıyır, tarixi, kimliyi və dəyərləri nəsildən-nəslə ötürür. Həmin münasibətləri zəiflətmək cəmiyyətin sabitliyini sarsıtmaq üçün ən təsirli üsuldur. Son illər insanların iradə, əzm, zəhmətsevərlik, vətənpərvərlik, ümumxalq mənafeyi, ailə təllərinə bağlılıq sahəsində qarşıya çıxan zəifliklər məhz koqnitiv müharibələrin yaratdığı fəsadlar sayəsində meydana gəlir. Yeni, koqnitiv əməliyyatlar sayəsində fərqli dəyərlərə, dünyagörüşünə, əxlaqa sahib olan, eyni zamanda, xeyir-şəri, sosial-ədalət prinsiplərini transmilli aktorların həyata keçirdiyi əməliyyatın niyyətinə uyğun formada dərk edərək qəbul edən insan kütləsi yaratmaq istiqamətində böyük işlər görülür.

Texniki tərəqqinin verdiyi böyük imkanlar insan beyninin xarici təsirlərə məruz qalmasını, informasiya vasitəsilə manipulyasiyasını asanlaşdırır. Nəticədə insanların hələ kiçik yaşlarından təkcə mətbuatdakı yazılarda deyil, bədii və cizgi filmlərində, teleseriallarda gizlədilmiş sublematik mesajların hücumlarından müdafiəsi zəifləyir.

Bu fikirlər ehtiyatda olan polkovnik-leytenant, hərbi jurnalist İsa İsmayılov və tərcüməçi, publisist, Azərbaycan Yazıçılar Birliyinin üzvü Nadiyə Qafarovanın "Ailə münasibətlərinin və mövcud demoqrafik vəziyyətin dəyişdirilməsində koqnitiv müharibələrin rolu və metodları" adlı məqaləsində yer alıb. AZƏRTAC məqaləni təqdim edir.

Fərqinə varmadan aludə olduğumuz bəzi vərdişlər əsasında formalaşan manipulyativ üsullar, yayılmış dezinformasiyalar, gənc nəslin gələcəkdə idarəolunan və zombiləşdirilmiş kütləyə çevrilməsi təhlükəsini gündəmə gətirir. İdrak savaşlarının bir digər təzahürü isə demoqrafik proseslərə müdaxilədir. Yer kürəsində gələcəkdə körpələrin doğum sayının azalması problemi artıq bu gündən nəzərə çarpır. "Əhali artımı resurs çatışmazlığı yaradır" tezisi əsasında əhali sayının azaldılmasına yönəlmiş transmilli layihələrə böyük maliyyə vəsaitləri ayrılır.

Sosial media platformaları bu prosesdə mühüm rol oynayır. Orada təqdim edilən real olmayan həyat tərzləri, süni xoşbəxtlik və "ideal münasibətlər" gənclərdə qeyri-real gözləntilər yaradır. Bu da ailədaxili narazılıqlara, boşanma hallarının artmasına və münasibətlərin səthiləşməsinə səbəb olur. "Azad ol", "Özünü reallaşdır", "Ailə səni məhdudlaşdırır" kimi çağırışlar fərdləri ailədən uzaqlaşdırır, şəxsi maraqları ümumi məsuliyyətlərdən üstün tutmağa sövq edir.

Bununla yanaşı, analıq və atalıq institutları, nəsillərarası mənəvi borc və məsuliyyət anlayışları getdikcə daha çox dəyərdən salınır. Bu da valideynlər və övladlar arasında münasibətlərin pozulmasına, nəticədə isə ailədaxili konfliktlərin artmasına səbəb olur. Belə münaqişələr valideynlərin daha çox uşaq sahibi olmaqdan imtina etməsinə gətirib çıxarır.

İdrak savaşları milli-mənəvi dəyərlərin zəifləməsi, nəsillərarası bağların qopması və cəmiyyətdə münasibətlərin aqressivləşməsi ilə nəticələnir. Media və sosial şəbəkələrdə bu tip hadisələrin geniş işıqlandırılması isə cəmiyyətə mənfi təsir göstərir və münaqişələrin artmasına səbəb olur.

Koqnitiv müharibələrin ən təhlükəli üsullarından biri vizual süjetlər vasitəsilə həyata keçirilən manipulyasiyalardır. Bu süjetlərdə insanlar əxlaqi və ideoloji cəhətdən kateqoriyalara ayrılır, nəticədə cəmiyyət daxilində parçalanma meyilləri artır. İnsanlar arasında etimad azalır, qarşılıqlı münasibətlərdə nəzakət və empatiya yox olur, nəticədə cəmiyyət asanlıqla yönləndirilə bilən formaya salınır.

Bütün bu təsirlər ailə institutunun zəiflədilməsinə, milli-mənəvi dəyərlərin aradan qaldırılmasına və bunun əvəzində yad ideologiyaların yeridilməsinə xidmət edir. Bu məqsədlə marketinq kampaniyaları, reklam çarxları, süni endirimlər, zərərli vərdişlərin təşviqi kimi üsullardan geniş istifadə edilir. Ən acınacaqlısı isə odur ki, bu təsirlər cizgi filmləri, oyunlar və sosial media vasitəsilə uşaqlara və yeniyetmələrə ünvanlanır.

İdrak savaşlarının əsas qayəsi tarixə, təhsilə və tərbiyə sisteminə müdaxilə etməklə milli özünüdərki silmək, xalqın təfəkküründə yeni mənzərə formalaşdırmaqdır. Ona görə də bu müharibələrə qarşı kompleks əks tədbirlər hazırlanmalı, strateji proqram və konsepsiyalar həyata keçirilməlidir.

Xüsusilə Şərq ölkələri ailə institutuna böyük önəm verdiyi üçün bu sahədə dəyərlərin qorunması və dəyişikliklərə qarşı mübarizə xüsusi əhəmiyyət daşıyır. Cəmiyyətin sosial kodlaşdırılmasına qarşı aparılan kütləvi hücumlara qarşı strateji yanaşmalar, milli həmrəylik və təhsil vasitəsilə effektiv cavab verilməlidir.

Texnologiyanın inkişafı nəticəsində beyin-çip texnologiyalarının, süni intellektin və neyroşəbəkələrin koqnitiv savaşlarda geniş istifadə olunması ehtimalı getdikcə artır. Bu texnologiyaların gələcəkdə hərbi məqsədlərlə istifadə olunmayacağına heç bir zəmanət yoxdur.

Sonda qeyd etmək lazımdır ki, idrak savaşlarına qarşı uğurlu mübarizənin əsas şərti milli özünüdərki qorumaq, təhsil və tərbiyə sistemində milli-mənəvi dəyərləri prioritet kimi müəyyənləşdirməkdir. Eyni kökdən olan xalqların həmrəyliyi və birgə fəaliyyəti yad ideologiyalara qarşı ən təsirli cavab olacaq, gələcək nəsillərin sağlam təməllər üzərində formalaşmasına böyük töhfə verəcək.

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
baş leytenant
Elçin İMANOV

Lisenziya № 361
Sifariş № 176
Nüsxə 3663